Noyabrın 5-dən etibarən **“Sabahın alimləri” XV respublika layihə müsabiqəsi**nə qeydiyyat başlayır.

ABŞ-nin "Society for Science" təşkilatı tərəfindən təşkil olunan Beynəlxalq Elm və Mühəndislik Sərgisi (ISEF) çərçivəsində ölkəmizdə “Sabahın alimləri” XV respublika layihə müsabiqəsi keçiriləcək.

Müsabiqənin əsas məqsədi ölkəmizdə fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin IX-XI siniflərində təhsil alan şagirdlərin elmi axtarışlara sövq edilməsi, onların elmi və yaradıcılıq fəaliyyətinin stimullaşdırılması çərçivəsində 9 istiqamət (riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya və ətraf mühitin idarə olunması, mühəndislik, kompüter elmləri, robototexnika və süni intellekt) üzrə elmi tədqiqat işinə meyli olan istedadlı şagirdlərin aşkar olunmasıdır.

Müsabiqədə iştirak etmək istəyən şagirdlər **5 noyabr saat 15:00**-dan etibarən **26 dekabr saat 17:00**-dək https://anket.edu.az/user/281 platforması üzərindən qeydiyyatdan keçməli və formaları göndərərək qeydiyyatı tamamlamalıdırlar.

Müsabiqə ilə bağlı qayda və formaları, eyni zamanda əlavə məlumatı https://sabahinalimleri.edu.az/ və https://arti.edu.az/ portalından əldə edə bilərsiniz.

***Formalar:***

Tədqiqat planı-Layihə xülasəsi

Annotasiya və Sertifikasiya

Layihənin Tərtib Forması

Forma 1

Forma 1A

Forma 1B

Forma 1C

Forma 2

Forma 3

Forma 7

***Qaydalar:*** “Sabahın alimləri” XV Respublika Layihə Müsabiqəsinin keçirilmə qaydaları

Müsabiqədə yüksək elmi-tədqiqat nəticələri əldə edən Azərbaycan məktəbliləri Amerika Birləşmiş Ştatlarında keçirilən Beynəlxalq Elm və Mühəndislik Sərgisində (ISEF) iştirak edəcəklər.

**Əlavə suallarla bağlı aşağıda qeyd olunan əlaqə vasitələrinə müraciət edə bilərsiniz:**

**Mob:** +99451 8167817

**Mail:** sabahinalimleri@edu.gov.az